III BÖLMƏ.
AQRAR-ƏRZAQ KOMPLEKSLƏRİNİN İNKİŞAF PROBLEMLƏRİ

UOT: 338.43; JEL: Q10; O13; P48

Elnur Qara oğlu ALLAHVERDİYEV
Azərbaycan Kooperasiya Universitetinin dosenti,
iqtisad üzrə fəlsəfə doktoru
E-mail: allahverdiyev.elnur33@mail.ru
https://doi.org/10.30546/4.71.731.03.2026.53

AZƏRBAYCANDA ORQANİK KƏND TƏSƏRRÜFATININ FORMALAŞDIRILMASININ MÜASİR DRAYVERLƏRİ

Xülasə

Tədqiqatın məqsədi Azərbaycanda orqanik kənd təsərrüfatının formalaşdırılmasının müasir drayverlərinin müəyyənləşdirilməsi və əsaslandırılmasından ibarətdir. Orqanik kənd təsərrüfatının yaradılması və inkişaf etdirilməsi problemləri araşdırılmış və ümumiləşdirilmişdir. Müasir dövrdə bu istiqamətlərdə inkişaf postulatları təhlil olunmuş və müvafiq təkliflər hazırlanmışdır.

Tədqiqatın metodologiyası olaraq elmi abstraksiya, analiz, sintez və ümumiləşdirmə metodlarından istifadə olunmuşdur. Digər tərəfdən, orqanik kənd təsərrüfatının inkişaf problemlərinə həsr olunmuş elmi əsərlərə müraciətlər edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti nöqteyi-nəzərindən deyə bilərik ki, məqalədə ümumiləşdirilmiş təkliflər hazırkı iqtisadi transformasiyalar şəraitində orqanik kənd təsərrüfatı modelinin inkişaf etdirilməsi mexanizmlərinin hazırlanmasında faydalı ola bilər.

Tədqiqatın nəticələri baxımından qeyd etmək olar ki, bu nəticələrin orqanik kənd təsərrüfatının inkişaf proseslərinin daha səmərəli təşkili üçün üstün və fərqli fəaliyyət mexanizmlərinin və alətlərinin tətbiqində istifadəsi ehtimalı yüksəkdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi baxımından, qeyd edək ki, müasir dövrdə orqanik kənd təsərrüfatının inkişafının nəzəri-metodoloji yanaşmaları kompleks şəkildə araşdırılmış və Azərbaycanda beynəlxalq təcrübəyə uyğun olaraq orqanik kənd təsərrüfatı modelinin tətbiqinin vacibliyi əsaslandırılmışdır. Bunlarla əlaqədar elmi arqumentlər verilmiş və müvafiq fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir.

Açar sözlər: Azərbaycan, orqanik kənd təsərrüfatı, kənd təsərrüfatı infrastrukturu, kənd təsərrüfatının inkişaf problemləri, orqanik kənd təsərrüfatı modeli, kənd təsərrüfatının inkişaf drayverləri.

Giriş

Qeyd edək ki, kənd təsərrüfatının inkişafı Azərbaycan iqtisadiyyatının inkişafı baxımından önəmli rola malikdir. Hazırda Azərbaycanın qarşısında əsas prioritet vəzifə ölkə iqtisadiyyatının neft-qaz sektorundan asılılığının azaldılması, qeyri neft-qaz sektorlarının, o cümlədən kənd təsərrüfatının inkişaf etdirilməsidir. Son dövrlərdə Azərbaycanda iqtisadi inkişafın prioritetləri baxımından yeni şərait yaranmış, sosial-iqtisadi islahatlar genişlənməyə başlamışdır ki, bu da yeni maliyyə mənbələrinin və gəlirlərinin formalaşmasını tələb edir. Ölkəmizdə reallaşdırılan sosial-iqtisadi islahatların yeni dalğası son illərdə qeyri-neft sektorunda əldə edilmiş iqtisadi artım və gəlirlər hesabına həyata keçirilir, bu proseslərin daha da sürətləndirilməsi strateji məqsəd kimi qarşıya qoyulub.

Qlobal transformasiyalar şəraitində ərzaq təhlükəsizliyi problemləri də ön plana çıxmaqdadır

və bununla bağlı problemlərin həllində kənd təsərrüfatının rolu yüksəkdir. Professor E.A.Quliyev qeyd edir ki, ərzaq əlçatanlığının təmin edilməsi və bununla bağlı problemlərin azaldılmasında əmək fəaliyyətinin düzgün qiymətləndirilməsi, məşğulluq tədbirlərinin kəsərliliyinin artırılması, xüsusilə kənd ərazilərinin əhalinin məşğulluq problemlərinin həll edilməsi ilə bağlılıq diqqət çəkir. Belə ki, kənd təsərrüfatları, fermerlər, fərdi sahibkarlar öz fəaliyyətlərinin səmərəli olması üçün mövcud şəraitə və potensiala malik olmalıdırlar [9, s. 302]. Digər tərəfdən, kənd təsərrüfatının inkişafının müasir trendlər səviyyəsində modelləşdirilməsi tələb olunur. Bu sırada bir çox qeyri-neftqaz sektoru sahələrinin kənd təsərrüfatı ilə qarşılıqlı əlaqələri diqqət çəkir. Əməkdar elm xadimi, professor B.X.Ataşov qeyd edir ki, Azərbaycan iqtisadiyyatının diversifikasiyası, yəni neft və qaz sektorundan kənar sahələrin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir [3, s. 185].

Bunlarla bərabər, kənd təsərrüfatının inkişafı üçün həmin sahə istehsalçılarının rəqabət qabiliyyətinin artırılması təxirəsalınmaz vəzifələrdən biridir. Kənd təsərrüfatı müəssisələrinin rəqabət üstünlüklərini artırmaq və dövlətin ərzaq təhlükəsizliyini təmin etmək üçün bu aspekt gücləndirilməlidir. Bu problem ancaq yerli istehsalçıların malik olduğu üstünlüklər hesabına həll edilə bilər. Bunlar, birincisi, iri fermer təsərrüfatıdır, torpaqlar bir çox hallarda orqanik məhsul istehsalı üçün əlverişlidir. Bu üstünlük kənd təsərrüfatını daxili iqtisadiyyatın rəqabətədavamlı, bərpa olunan məhsullar istehsal etməyə qadir sektoruna çevirir. İkincisi, yüksək keyfiyyətli və ucuz məhsul istehsal etməyə imkan verən nisbətən ucuz işçi qüvvəsi vardır. Hazırda Azərbaycanda kənd təsərrüfatı sənayeni inkişaf etdirməyə və yerli istehsal məhsullarına tələbatı artırmağa imkan verən bir sıra üstünlüklərə malikdir [7, s. 143].

Azərbaycanda orqanik kənd təsərrüfatının formalaşdırılması proseslərinin təhlili

Hazırda Azərbaycanda kənd təsərrüfatı müəssisələrinin rəqabət qabiliyyətinin artırılması strategiyası işlənib hazırlanmışdır ki, bu da sənayenin xüsusiyyətlərini və orada mövcud olan problemləri nəzərə alır. Kənd təsərrüfatı müəssisələrinin rəqabət qabiliyyətinin artırılmasının əsas missiyası idarəetmə qərarlarının satışın həcminin, bazar payının, gəlirliliyin və rentabelliyin artmasına təsiri baxımından qiymətləndirilməsi metodologiyasının yaradılmasından ibarətdir. Həmin sahə müəssisələrinin rəqabət qabiliyyətinin artırılması üzrə tədbirlərin seçilməsi sahələrin, müəssisələrin, iş şəraitinin spesifik xüsusiyyətlərinə əsaslanaraq reallaşdırılmalıdır. Əsas vəzifə qeyri-neft sektorunda yaradılmış əlverişli şəraitdən, sahibkarlıq və biznes mühitinin yaxşılaşdırılmasına dövlət tərəfindən dəstəyin göstərilməsindən, iqtisadiyyatımızın neft-qaz sektorundan asılılığının azaldılmasından maksimum səmərəli istifadə etməkdir [6, s.63]. Digər tərəfdən, rəqabət qabiliyyətinin və səmərəliliyinin artması təkcə kənd təsərrüfatı müəssisəsinin daxili potensialından deyil, habelə kənd təsərrüfatı məhsulları bazarının inkişaf dərəcəsindən asılıdır. Bu gün kənd təsərrüfatı məhsulları bazarı ərzağın fiziki və iqtisadi əlçatanlığı, məhsullarla doyması, habelə, iştirakçılar arasında iqtisadi münasibətlərin qeyri-kamilliyi, qiymət bərabərsizliyi, pərakəndə satış şəbəkələrinin inhisarçılığı ilə xarakterizə olunur.

Qeyd edək ki, kənd təsərrüfatı məhsulları bazarının təkmilləşdirilməsi üçün aşağıdakı idarəetmə üsullarının tətbiqi vacibdir: bazar subyektləri arasında bərabərhüquqlu iqtisadi münasibətlərin formalaşdırılması; kənd yerlərinin infrastrukturunun yaxşılaşdırılması; yerli istehsalçıların məhsullarının dəstəklənməsi və təşviq edilməsi; informasiya və konsaltinq xidmətlərinin, informasiya və marketinq agentliklərinin yaradılması. Beləliklə, təklif olunan tədbirlərin tətbiqi və reallaşdırılması kənd təsərrüfatı müəssisələrinin inkişafı, iqtisadi səmərəliliyinin artırılması, rəqabət qabiliyyətinin yüksəldilməsi üçün əlverişli mühit yaradacaq, daxili və xarici bazarlara çıxış imkanlarını artıracaq və nəticədə ölkənin ərzaq təhlükəsizliyinin qorunub saxlanılmasına və təmin olunmasına töhfə verəcək.

Azərbaycanda kənd təsərrüfatının inkişafı maliyyə alətlərinin səmərəli istifadəsini tələb edir. Kənd təsərrüfatının maliyyə alətləri kənd təsərrüfatı sahibkarları və fermerlərin maliyyə ehtiyaclarını və problemlərini ödəmək üçün nəzərdə tutulmuş bir sıra alətlər və mexanizmlərdir. Kreditlər, sığorta, subsidiyalar, faktorinq və forfeytinq müqavilələri, müxtəlif mənbələrdən verilən anbar

qəbzləri ən çox istifadə olunan alətlər sırasındadır. Qeyd edilən həmin alətlər kapitala çıxışın asanlaşdırılması, maliyyə risklərinin idarə edilməsi və digər məqsədlər üçün nəzərdə tutulub. Bu alətlər arasında ən önəmli yeri kredit tutur və onun hesabına əldə edilən vəsaitlər fermerlər tərəfindən dövriyyə vəsaitlərinin, kapitalın və torpaqların alınması, məhsul yığımı, marketinq və digər fəaliyyətləri reallaşdırmaq üçün istifadə olunur [2, s.96].

Azərbaycanda kənd təsərrüfatının inkişafında əsas maliyyə aləti investisiyalardır. İnvestisiyalar təkcə istənilən müəssisənin fəaliyyətində deyil, habelə bütövlükdə dövlətin iqtisadiyyatında önəmli rol oynayır, çünki onlarsız sabit iqtisadi inkişafın və dayanıqlı iqtisadi artımın təmin edilməsi prosesi mümkün deyil. İnvestisiya prosesinin səmərəliliyi və fəallığı bütövlükdə ölkənin iqtisadi potensialını müəyyənləşdirir. Əvvəla, hər bir ayrı-ayrı təsərrüfat subyektinin iqtisadi fəaliyyəti bilavasitə investisiyaların hansı həcmdə və hansı formada qoyulmasından və alınmasından asılıdır. Təsərrüfatların dəstəklənməsi sahəsində dövlətin imkanları məhdud olduğundan onun investisiya inkişafının uğurlu istiqamətlərini müəyyən etmək ən mühüm vəzifə olmalıdır. İnvestisiya fəaliyyəti sayəsində müəssisələr sərt rəqabət şəraitində uğur qazana, səmərəli inkişaf edə və belə çətin vəziyyətdə nəinki sağ qala, həm də bazarda uğurla fəaliyyət göstərə bilirlər. Beləliklə, kənd təsərrüfatı müəssisələrində investisiya fəaliyyəti tətbiq edilmədən onların səmərəli inkişafı mümkün deyil. Müəssisələrin uğuru investisiya alətlərinin onların fəaliyyətinə keyfiyyət və kəmiyyətcə daxil edilməsindədir. Yəni, səmərəli investisiya fəaliyyəti kənd təsərrüfatı müəssisələrinin uğurlu fəaliyyətini təmin edir.

İnnovasiyalar kənd təsərrüfatının rəqabət qabiliyyətinin artırılmasında həlledici rol oynadığına heç kim şübhə edə bilməz. Tədqiqat və inkişafa sərmayə qoymaq və yeni texnologiyalar və təcrübələri mənimsəməklə, bu müəssisələr daim dəyişən bazar mühitində rəqabətdən öndə olmaqla yanaşı, məhsuldarlığını artıra, xərcləri azalda, istehlakçı tələblərini daha effektiv şəkildə qarşılaya bilərlər. Bu gün kənd təsərrüfatı müəssisələri arasında ən populyarı mənfi şərtlərin, o cümlədən iqlim şəraitinin təsirini azaltmağa kömək edən və orqanik kənd təsərrüfatı məhsullarını, yəni kimyəvi gübrələrdən istifadə etmədən əldə etməyə imkan verən innovativ texnologiyalardır. Bununla belə, bu cür məhsullar maya dəyərinə görə analoqlarından daha yüksəkdir, çünki kimyəvi gübrələrdən istifadə etmədən bu məhsulların məhsuldarlıq göstəriciləri əhəmiyyətli dərəcədə azalır. Lakin bu cür məhsullara yüksək tələbat kənd təsərrüfatı müəssisələrinə onlara qiymətləri daha yüksək təyin etməyə imkan verir [12, s.88].

İnnovativ texnologiyalar kənd təsərrüfatı müəssisələrinin istehsalının səmərəliliyini artırmağa kömək edir, məsələn, bitkiçilikdə və əkinçilikdə cari xərclərin azalması müşahidə olunur ki, bu da kənd təsərrüfatı məhsullarının maya dəyərinin azalmasında əks olunur. İnnovativ texnologiyalar enerji xərclərini əhəmiyyətli dərəcədə azaltmağa, hər hektara lazım olan texnika üçün tələb olunan yanacağın miqdarını, hər hektar sahəyə əkin üçün tələb olunan toxumların və gübrələrin həcmini dəqiq müəyyənləşdirməyə, insan əməyini avtomatlaşdırmağa və minimuma endirməyə imkan verir. Öz növbəsində, innovativ texnologiyalardan istifadə kənd təsərrüfatı məhsullarının maya dəyərini azaldır və kənd təsərrüfatı sahəsi üçün maksimum mənfəət əldə etməyə kömək edir. Deməli, kənd təsərrüfatı sahələri tərəfindən istehsalda innovativ texnologiyaların tətbiqi artan mənfəətlə müşayiət olunduğu üçün geniş vüsət alır və bu yeniliklərdən istifadə məhsuldarlığın artırılmasına kömək edir, onun toplanması və emalını asanlaşdırır.

Xammalın emal dərinliyini artırmaq və ikinci dərəcəli resursları təsərrüfat dövriyyəsinə cəlb etmək lazımdır. Bu, emal olunmuş xammal vahidinə düşən hazır məhsulun məhsuldarlığını artıracaqdır. Müasir texnologiyaların, o cümlədən bio və nanotexnologiyaların istifadəsi müəyyən edilmiş keyfiyyət xüsusiyyətlərinə malik yeni nəsil məhsulların istehsalını əhəmiyyətli dərəcədə genişləndirəcəkdir [10, s. 331].

Qlobal böhranların və pandemiyaların yayılması kontekstində süd və süd məhsulları, mal əti, meyvə, tərəvəz və digər qida məhsullarının istehlakında ərzaq təhlükəsizliyinin təmin edilməsi problemi xüsusilə aktualdır. Bu problemi həll etmək üçün dövlət anbar bazasının inkişafına və bu məhsulların istehsalının artırılmasına diqqəti artırmalıdır. Deməli, kənd təsərrüfatı müəssisələrinin

gələcək inkişafının prioritet istiqamətləri emal müəssisələrinin xammal zonalarının formalaşdırılması, onların müasirləşdirilməsi, tullantısız istehsalı təmin edən resursa qənaət edən texnologiyalardan istifadədir. İntensivləşdirmə istehsalın səmərəliliyinin yüksəldilməsinin maddi əsasıdır və buna görə həmin prosesin hərtərəfli təhlili sosial-iqtisadi inkişafın optimal strategiyasının hazırlanmasında böyük önəm daşıyır. İstehsalın intensivləşdirilməsi dünya iqtisadiyyatının inkişafının ən mühüm tendensiyalarından biridir. İstehsalın intensivləşdirilməsi həm də yerli məhsulların rəqabət qabiliyyətini artıran ən mühüm amillərdən biridir. İntensivləşdirmənin bu və ya digər üstünlüklərinə əsaslanaraq, Azərbaycanda qlobal çağırışlar kontekstində orqanik kənd təsərrüfatının inkişafının intensivləşdirilməsi istiqamətlərinin araşdırılması böyük təcrübi əhəmiyyətə malikdir.

Azərbaycanda milli iqtisadiyyatın strukturunun şaxələndirilməsi baxımından əsas vəzifələrdən biri kimi kənd təsərrüfatının inkişafının qlobal iqtisadi meyillər kontekstində strateji hədəflər nəzərə alınmaqla intensivləşdirilməsi önə çıxır. Kənd təsərrüfatı istənilən ölkənin iqtisadiyyatında, əhalinin həyat səviyyəsinin və məşğulluğunun yüksəldilməsində önəmli rol oynayan milli iqtisadiyyatın sahələrindən biridir. Azərbaycanın qədim kənd təsərrüfatı tarixi var və bütün dövrlər boyu ölkəmizin vətəndaşları torpağa bağlı olub, əkinçilik əsas fəaliyyət sahələrinə çevrilib. Heyvandarlıq da əhalinin ən qədim məşğuliyyətlərindən və dolanışıq vasitələrindən biri olmuşdur. Azərbaycanın daha bir özəlliyi ondan ibarətdir ki, ölkə əhalisinin xeyli hissəsi kənd yerlərində yaşayır. Odur ki, kənd təsərrüfatının inkişafı, burada fəaliyyət proseslərinin intensivləşdirilməsi mühüm şərtdir [5, s.23].

Kənd təsərrüfatının intensivləşdirilməsi zərurəti makroiqtisadi amillərlə - kənd təsərrüfatı istehsalında istifadəyə yararlı məhdud torpaq sahəsi, əhalinin qlobal artımı nəticəsində kənd təsərrüfatı məhsullarına tələbatın artması ilə müəyyənləşdirilir. Bazar şəraitində intensivləşmənin iki aspekti var. Bir tərəfdən kənd təsərrüfatı məhsullarının istehsalının həcminin artması makroiqtisadi amillərlə bağlıdırsa, digər tərəfdən bazar həmişə təklifə deyil, tələbata yönəlib. Bazar şəraitində istehsal həcminin artırılması yalnız məhsullara yüksək və sabit tələbat olduqda aktualdır və buna görə istehsalın intensivləşdirilməsi həmişə bazarın tələblərini nəzərə almalıdır. Azərbaycanda kənd təsərrüfatı üçün istehsalın intensivləşdirilməsi inkişafın əsas istiqamətlərindən biridir, çünki hazırda ölkədə kənd təsərrüfatı məhsulları bazarı genişdir.

Kənd təsərrüfatının intensivləşdirilməsi təkcə həyati vacib iqtisadi strategiya deyil, habelə sosial strategiyadır. Çünki kənd təsərrüfatı istehsalının intensivləşdirmə əsasında qurulması və inkişafı müəssisənin rentabelli fəaliyyətini təmin edir ki, bu da kənd əhalisinin həyat şəraitini xeyli yaxşılaşdıracaqdır. Dünyada kənd təsərrüfatı intensivləşmə yoluna nisbətən yaxınlarda - ötən əsrin 1950-ci illərində qədəm qoymuşdur. Kənd təsərrüfatı istehsalının intensivləşməsinin əsas xüsusiyyətləri intensiv heyvandarlıq, kimyalaşma, kompleks mexanikləşdirmə və meliorasiyadır. Kənd təsərrüfatına bu cür yanaşma bir neçə onilliklər ərzində ərzaq istehsalının həcmini önəmli dərəcədə artırmaq və maksimum səmərəlilik göstəricilərinə nail olmaq imkanı vermişdir. Bununla belə, bu cür göstəricilərin əldə edilməsi, öz növbəsində, ətraf mühitə mənfi ekoloji təsirin artmasına səbəb oldu: torpaqların sürətli deqradasiyası, su ehtiyatlarının və ekosistemlərin tükənməsi, böyük həcmdə istixana qazlarının buraxılması və biomüxtəlifliyin azalması. Habelə, təbiətlə yanaşı, məhsulların keyfiyyəti də əziyyət çəkir, məhsulların qida dəyəri hər il azalır. Bu problemin həlli orqanik kənd təsərrüfatı prinsiplərinə əməl etməklə orqanik məhsul istehsalının reallaşdırılmasıdır.

Kənd təsərrüfatı istehsalının intensivləşməsi ətraf mühitə mənfi təsirlərə səbəb ola bilər. Xüsusilə, söhbət ekosistemin çirklənməsindən, torpağın deqradasiyasından, hazır məhsulda zərərli maddələrin toplanmasından gedir. Buna görə, bütün dünyada bu təsirin minimal olacağı kənd təsərrüfatı sisteminin yaradılmasına ehtiyac var. Bu aspektdə son illər ekoloji cəhətdən təmiz, müəyyən tələblərə cavab verən orqanik kənd təsərrüfatı istehsalı nəzərdə tutulur. Orqanik kənd təsərrüfatı istehsalı konsepsiyası ötən əsrin ortalarından başlayıb. Bu konsepsiyanın əsas şərti ətraf mühitə aktiv və artan təsirə səbəb olan ənənəvi və xüsusilə intensiv kənd təsərrüfatı istehsalına alternativ tapmaq zərurəti idi. Bu gün belə bir alternativ kimi orqanik kənd təsərrüfatı çıxış edir ki, bu

da qlobal bir tendensiyadır və 180-dən çox ölkədə tətbiq olunur. Orqanik kənd təsərrüfatı istehsalı ekosistemlərin, insanların və torpaqların sağlamlığının keyfiyyətinin qorunmasına və yaxşılaşdırılmasına əsaslanan istehsal sistemidir. Bu proseslərin mahiyyəti ətraf mühitə mənfi təsir göstərən resurslardan istifadə etmədən, yerli mühitin bioloji müxtəlifliyinin və təbii dövrlərin saxlanması nəzərə alınmaqla əlverişli ekoloji proseslərin inkişaf etdirilməsindən ibarətdir. Orqanik kənd təsərrüfatı müasir elmdə təkcə sənayenin inkişafının perspektivli istiqaməti kimi deyil, habelə iqtisadiyyatın aqrar sektorunda və bütövlükdə cəmiyyətin davamlılığına nail olunmasında mühüm şərt kimi qəbul edilir.

Dünya təcrübəsindən orqanik kənd təsərrüfatı istehsalına başlamağın kifayət qədər riskli proses olduğunu görmək mümkündür və həmin proses təkamül yolu ilə reallaşdırılmalıdır. Ənənəvi kənd təsərrüfatından orqanik istehsala keçid birbaşa olaraq mümkün olmur. Təbii ki, bu zaman orqanik kənd təsərrüfatının formalaşması proseslərinə başlanılmalı və bu proseslər pilot təsərrüfatların yaradılması ilə inkişaf etdirilməlidir [1, s.63]. Orqanik istehsal və istehlakın miqyası ölkələr arasında əhəmiyyətli dərəcədə fərqləndiyinə görə, hər biri sektorun hərtərəfli təhlilinə əsaslanaraq, öz milli strategiyasını işləyib hazırlamalı və onu müvafiq tədbirlər, təşviqlər, aydın qrafiklər və milli məqsədlərlə təmin etməlidir. İnstitusional sənədlərində onlar orqanik əkinçiliklə məşğul olan ərazilərin hədəf dəyərlərinə necə nail olmağı planlaşdırmalı, bunun üçün hansı potensialdan istifadə edə biləcəklərini aydınlaşdırmalı və məhsul istehsalını artırmaq üçün tədbirlər görəcəklərini bilməlidirlər.

Azərbaycanda orqanik kənd təsərrüfatının yaradılması proseslərinin sürətləndirilməsi istiqamətləri

Kənd təsərrüfatı istehsalının intensivləşməsi ətraf mühitə mənfi təsirlərə səbəb ola bilər. Xüsusilə, söhbət ekosistemin çirklənməsindən, torpağın deqradasiyasından, hazır məhsulda zərərli maddələrin toplanmasından gedir. Buna görə, bütün dünyada bu təsirin minimal olacağı bir kənd təsərrüfatı sisteminin yaradılmasına ehtiyac var. Bu aspektdə son illər ekoloji cəhətdən təmiz, müəyyən tələblərə cavab verən orqanik kənd təsərrüfatı istehsalı nəzərdə tutulur. Belə məhsulların istehsalının intensivləşdirilməsi və orqanik məhsullar bazarının inkişaf etdirilməsi Azərbaycan üçün də aktual problemlərdən birinə çevrilmişdir. Orqanik kənd təsərrüfatının inkişafının intensivləşdirilməsi ölkəmizin kənd təsərrüfatı sektoru üçün çox aktual sahədir. Belə ki, ölkənin kənd təsərrüfatı siyasəti çərçivəsində orqanik kənd təsərrüfatının inkişafının intensivləşdirilməsi hesabına istifadəsiz əkin sahələrinin əhəmiyyətli hissəsini dövriyyəyə buraxmaq olar, regionlarda kənd əhalisinin məşğulluğunu, istehsalçıların orqanik məhsulların beynəlxalq bazarına çıxışını təmin etmək və bununla da ixrac olunan kənd təsərrüfatı mallarının qiymətlərini artırmaq, daxili ərzaq bazarını yüksək keyfiyyətli yerli məhsullarla təmin etmək olar. Azərbaycanda orqanik kənd təsərrüfatının inkişafı, fikrimizcə, regional və yerli iqtisadiyyatların şaxələndirilməsi, potensial artım nöqtələrinin yaradılması, xüsusən də ucqar kənd yaşayış məntəqələri üçün ən perspektivli sahələrdən biridir. Regionlarda orqanik kənd təsərrüfatı seqmentinin regional səviyyədə daha da uğurlu inkişafı üçün bu sahədə normativ-hüquqi bazanın inkişafı və təkmilləşdirilməsi lazımdır.

Araşdırmalar göstərir ki, Azərbaycanda orqanik məhsulların daxili bazarında 4 əsas satış kanalı mövcuddur. Birincisi, bu cür məhsullar birbaşa istehsalçıdan istehlakçılara satılır. İkinci kanalda pərakəndə satıcı fermerdən məhsulu alır və istehlakçılara satır. Üçüncü kanalda iki vasitəçi – topdan və pərakəndə satıcılar mövcuddur. Dördüncü kanalda isə başqa bir vasitəçi bazara müdaxilə edir. Bu qədər əldən keçən məhsul təravətliyini itirmək təhlükəsi ilə üzləşir, nəticədə zəncirdəki hər kəsə təsir edir və orqanik məhsulların istehlakçılara davamlı çatdırılmasını təhlükə altına qoyur [4, s.55]. Bu kimi problemlərin aradan qaldırılması üçün orqanik məhsulların istehsalı və satışı prosesləri intensivləşdirilməlidir.

Son illərdə istehlakçılar orqanik məhsulları onlara müxtəlif yollarla fayda verə biləcək yüksək keyfiyyətli məhsullar kimi tanıyırlar. Tədqiqatlar göstərir ki, ənənəvi qidalarda təhlükəli maddələrin olması istehlakçıları yüksək keyfiyyətli məhsullar almağa sövq edir. Orqanik məhsulların

alınmasına mane olan əsas maneə yüksək qiymətdir. Müəyyən edilmişdir ki, etiketləmə və sertifikatlaşdırmanın olması alıcıların seçiminə müsbət təsir göstərə bilər. Tədqiqatlar müəyyən etmişdir ki, müxtəlif ölkələrdə sertifikatlaşdırma sisteminin işləməsi ilə bağlı müəyyən xüsusiyyətlər mövcuddur. Almaniya, İtaliya, Fransa, Hollandiya, Çexiya, İsveç və Latviyada özəl sertifikatlaşdırma sistemi fəaliyyət göstərir. Litvada qarışıq sertifikatlaşdırma sistemi özünü kifayət qədər yaxşı sübut etmişdir və uğurla fəaliyyət göstərir ki, bu da müəyyən dərəcədə dövlət və özəl sektoru özündə birləşdirir [11, s.732]. Sertifikatlaşdırılmış orqanik məhsullar bir sıra səbəblərə görə ənənəvi məhsullardan daha bahalıdır, bunlardan biri də həmin məhsulların yetişdirilməsinin məhsul vahidi üçün daha yüksək xərc tələb etməsidir. Əsas problem ondan ibarətdir ki, Azərbaycanda hələ də orqanik məhsulların keyfiyyətinə zəmanət verən milli sistem demək olar yox səviyyəsindədir. Gələcəkdə Azərbaycanda da orqanik kənd təsərrüfatının yaradılması və təkmilləşdirilməsini tənzimləyən qanun qəbul edilməli və bu sahədə milli sertifikatlaşdırma sisteminin inkişafı üzərində iş aparılmalıdır.

Azərbaycanın beynəlxalq əməkdaşlığı da orqanik istehsalın intensivləşdirilməsinə təkan verə bilər. Çünki, beynəlxalq əməkdaşlıq yolu ilə xarici təcrübəni öyrənmək və ən qabaqcıl təcrübələri tətbiq etməklə orqanik kənd təsərrüfatının istehsalını intensivləşdirmək olar. 12 noyabr 2021-ci ildə İstanbulda keçirilən Türk dövlət başçılarının Zirvə toplantısında türk dünyasının birliyi istiqamətində həddən artıq önəmli qərarlar qəbul edilmiş və “Türk Dünyasına baxış 2040” adlı sənəd təsdiq edilmişdir. Həmin sənəddə kənd təsərrüfatının inkişafına da xüsusi yanaşmalar əks olunub. Bu sənəd ekoloji baxımdan təmiz, dayanıqlı və orqanik kənd təsərrüfatı potensialının artırılması məqsədilə həmin sahədə əməkdaşlığı da gücləndiriləcək. Kənd təsərrüfatı sahəsində beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlığı da təşviq edəcəkdir. TDT regionumuzda dayanıqlı kənd təsərrüfatının inkişafına, özünü ərzaqla təmin etmə səviyyəsinin yüksəldilməsinə və ərzaq təhlükəsizliyinin təmin olunmasına önəm verir [8, s.15].

Orqanik kənd təsərrüfatının intensivləşdirilməsi prosesi bu sənayenin xüsusiyyətlərinə əsaslanır. Bitkiçiliyin intensivləşdirilməsinin təbii əsasını torpağın gübrə verməklə, meliorativ işlərin aparılması və torpağın düzgün becərilməsi yolu ilə münbitliyini artırmaq qabiliyyəti təşkil edir. Heyvandarlıq istehsalının intensivləşdirilməsi prosesində damazlıq işləri, yaxşılaşdırılmış yemləmə, qulluq nəticəsində heyvanların xassələrindən onların məhsuldarlıq keyfiyyətlərinin artırılması üçün istifadə olunur. Bitkiçilik üçün ən mühüm göstəricilər enerji təchizatı, gübrələrin tətbiqi səviyyəsi, kənd təsərrüfatı torpaqlarından istifadə səviyyəsi, kənd təsərrüfatı bitkilərinin sort tərkibinin yaxşılaşdırılması kimi göstəricilərdir. Heyvandarlıqda intensivlik səviyyəsi bir baş mal-qaraya düşən yem sərfi və əmək məsrəfləri, istehsal proseslərinin kompleks mexanikləşdirilməsi səviyyəsi, damazlıq işlərinin səviyyəsi ilə xarakterizə olunur [13, s.121].

Kənd təsərrüfatı istehsalçıları olmadan, yerli yaşıl brendlərin yaradılması vəzifəsinə nail olmaq və orqanik məhsulların istehsalının həcmini artırmaq və intensivləşdirmək mümkün deyil. Hazırda kənd təsərrüfatının intensivləşdirilməsinin alternativi yoxdur. Orqanik kənd təsərrüfatının inkişaf etdirilməsinin intensivləşdirilməsi probleminə millətin sağlamlığının qorunması nöqteyi-nəzərindən baxmaq lazımdır. Əhalinin artımı, gözlənilən ömür uzunluğunun artması, habelə yerin bir sakininə düşən əkin sahələrinin azalması, suvarma ehtiyacları üçün şirin su ehtiyatlarının məhdud olması məhsuldarlığın artırılmasını təmin edəcək əkinçilik üsullarının işlənib hazırlanması zərurətini diktə edir. Kənd təsərrüfatının intensivləşdirilməsi torpaqlara və bitkilərə qarşı mübarizədə fiziki, aqrokimyəvi və bioloji üsulların bütün kompleksindən, eləcə də bitkilərin becərilməsi şəraitinin tənzimlənməsi üçün aqrokimyəvi və bioloji üsullardan istifadəni tələb edir. Bu cür üsul və vasitələrin kompleksi birlikdə bitkilərin formalaşmasının idarə edilməsi sistemini təşkil edir. Belə sistemlər aqrar-sənaye kompleksi inkişaf etmiş əksər ölkələrdə uğurla fəaliyyət göstərir. Təsərrüfat təcrübəsində rəqəmsal texnologiyalardan geniş istifadə olunur ki, onların köməyi ilə bitkilərin böyüməsini və inkişafını, o cümlədən mineral qidalanmanı tənzimləmək mümkündür.

Hazırda əsas vəzifə bitkiçilikdə torpaqların kimyəvi maddələrdən təmizlənməsi və orqanik

məhsul istehsalı sahələrinin genişləndirilməsidir. Aydındır ki, bitkiçilikdə torpağı kimyəvi maddələrdən təmizləmək üçün minimum vaxt orta hesabla 2-3 il lazımdır. Bitkiləri pestisidlərdən istifadə etmədən yalnız bioloji mühafizə vasitələri ilə müalicə etmək olar. Orqanik kənd təsərrüfatı çərçivəsində sintetik gübrələrin, pestisidlərin və bitki artım tənzimləyicilərinin istifadəsi minimuma endirilməlidir. Məhsuldarlığı artırmaq üçün növbəli əkinlərin təsirindən, üzvi gübrələrdən, müxtəlif torpaq becərmə üsullarından daha fəal istifadə olunmalıdır.

Orqanik heyvandarlıq məhsul istehsalı iqtisadi cəhətdən daha sərfəlidir və rəqabətqabiliyyətlidir. Heyvandarlıq kənd təsərrüfatının tərkib hissəsidir və qida sənayesi üçün xammal və bitkiçilik üçün üzvi gübrə istehsal edən ölkənin aqrar-sənaye kompleksinin aparıcı sahələrindən biridir. Müasir heyvandarlıq heyvanlardan maksimum məhsuldarlıq əldə etməyə yönəlmişdir. Yüksək məhsuldarlıq və qazanc əldə etmək üçün heyvanlar kiçik bir ərazidə cəmlənir və onların istismarında müxtəlif böyümə stimulyatorları, antibiotiklər, sintetik yemlər və dərmanlar aktiv şəkildə istifadə olunur ki, bu da əldə edilən məhsulların keyfiyyətinə və nəticədə insan sağlamlığına mənfi təsir edir. Buna görə, müasir dünyada getdikcə daha çox insan orqanik qida məhsullarına üstünlük verməyə başlayır və bu cür məhsullara artan tələbatı ödəyə bilən orqanik heyvandarlıqdır.

Ölkənin aqrar-sənaye kompleksində ənənəvi bitkiçilik və heyvandarlıq sistemlərindən kənd təsərrüfatı istehsalının alternativ ekosistem əsaslı üsullarına keçid mərhələli şəkildə, orqanik prinsiplərə əsaslanan intensiv kənd təsərrüfatı texnologiyalarının köklü yaşıllaşdırılması yolu ilə reallaşdırılmalıdır. Orqanik kənd təsərrüfatı istehsalı fermerlərdən ənənəvi istehsal üsulları ilə müqayisədə məhsuldarlığın azalmasına, əmək intensivliyinin artmasına və istehsal xərclərinin artmasına səbəb ola biləcək aqrotexniki üsullardan istifadə etməyi tələb edir. Nəticədə, orqanik fermerlər adi fermerdən daha az gəlir əldə edə bilərlər. Bu baxımdan, orqanik istehsal üsullarından istifadə edən istehsalçılara dəstək verilməlidir. Bununla belə, orqanik kənd təsərrüfatının inkişafının çox hissəsi fermerlərin təbiətə uyğun əkinçilik sistemləri ilə məşğul olmaq marağına və daha yüksək qiymətə orqanik məhsulları alan istehlakçıların dəstəyinə əsaslanır. Bunlar əsas ilkin şərtlərdir, onsuz ən güclü dövlət dəstəyi belə təsirli olmayacaq.

Nəticə

Nəticə olaraq, Azərbaycanda orqanik kənd təsərrüfatının inkişafı və əhalinin ərzaq məhsulları ilə daha dolğun təmin edilməsi üçün prioritet istiqamətlər təklif edilə bilər:

- kənd təsərrüfatı istehsalının maddi-texniki bazasının yenilənməsi;
- kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsi;
- investisiyaların kənd təsərrüfatı sektorlarına yönəldilməsinin stimullaşdırılması;
- kənd təsərrüfatı sahəsində sənayenin rəqabət üstünlüklərindən səmərəli istifadəni, kənd təsərrüfatı istehsalının rasional yerləşdirilməsinin və kənd yerlərində əmək ehtiyatlarından istifadəni təmin edən təsərrüfat subyektlərinin balanslaşdırılmış, qarşılıqlı faydalı diversifikasiyalı sistemin formalaşdırılması;
- kənd təsərrüfatı istehsalçılarının emal və xidmət müəssisələri ilə inteqrasiyası;
- kənd yerlərinin sosial-iqtisadi inkişafına kömək göstərilməsi;
- əkinçiliyin ən yaxşı tarixi ənənələrinin və milli üstünlüklərinin, mədəni və etnoqrafik irsin qorunması və s.

Orqanik kənd təsərrüfatının inkişafının intensivləşdirilməsi üçün effektiv dövlət tənzimləməsi zəruridir, bu tənzimləmə əhatə etməlidir:

- orqanik kənd təsərrüfatının inkişafı üzrə ümumi konsepsiyanın qəbul edilməsi;
- orqanik kənd təsərrüfatı və orqanik məhsul bazarlarının tənzimlənməsi haqqında qanunların qəbulu;
- standartlaşdırma, sertifikatlaşdıran təşkilatların akkreditasiyası və orqanik bazarın vəziyyətinin monitorinqi üçün xüsusi mərkəzin yaradılması;
- təsərrüfatlar üçün birbaşa subsidiyaların olması;
- orqanik məhsul istehsalçılarına maliyyə, informasiya və marketinq dəstəyi.

ƏDƏBİYYAT

1. Abbasov A.F. Orqanik kənd təsərrüfatı məhsullarının istehsalı və satiş bazarları. Kənd təsərrüfatının iqtisadiyyatı, 2020, № 2 (32), s.53-56.
2. Alıyev R.F. Kənd təsərrüfatı istehsalçılarının maliyyə vasitələrinə çıxış imkanlarının genişləndirilməsi mexanizmləri. Kənd təsərrüfatının iqtisadiyyatı, 2023, № 1 (43), s.89-98.
3. Ataşov, B.X. Azərbaycan iqtisadiyyatının qeyri-neftqaz sektorunun müasir durumu və inkişaf perspektivləri. Monoqrafiya. – Bakı: Kooperasiya nəşriyyatı, – 2026. – 336 s.
4. Eynalov H., Quliyev Y., Aksoy U., Boz İ. Azərbaycanda orqanik kənd təsərrüfatı: Hazırkı durum və gələcək inkişaf potensialı. Bakı, 2018, 106 s.
5. Əliyev Ş.T. Azərbaycanda kənd təsərrüfatının və aqrar sənaye kompleksinin inkişafının strateji aspektləri. İpək yolu, №.2, 2018, s.23-32.
6. Əliyev Ş.T. Azərbaycanda qeyri-neft sənayesinin şaxələndirilməsi və ixrac potensialının artırılması istiqamətləri. Audit jurnalı, № 04, 2019. - s.61-73.
7. Əliyev, Ş.T. İlham Əliyevin kənd təsərrüfatı sahəsindəki islahatları real nəticələr verir. /İlham Əliyev-10 il hakimiyyətdə. Elmi-praktiki konfransın materialları. Bakı, “Şərq-Qərb” Nəşrıyyat Evi, 2013. – s.141-156.
8. Hüseyn R. “Türk dünyasına baxış 2040”ın reallaşdırılmasının iqtisadi inkişafa təsiri. “İqtisadi islahatlar” elmi-analitik jurnal, № 3(4), Bakı, 2022, s.12-18.
9. Quliyev, E.A. Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışılar və perspektivlər. / E.A.Quliyev – Bakı: Kooperasiya, – 2018. – 479 s.
10. Минаков, И.А. Состояние и перспективы развития переработки сельскохозяйственной продукции / И. А. Минаков // Актуальные вопросы экономики и агробизнеса: Сборник Трудов, Брянск, 23–24 марта, 2023. – С. 328-333.
11. Парпиева, Н.Р. Органическое сельское хозяйство: проблемы и перспективы / Н.Р. Парпиева // Вестник Кыргызского национального аграрного университета им. К.И. Скрябина. – 2021. – № 2(56). – С. 729-733.
12. Сабодах, И.В. Инновационные технологии, повышающие эффективность сельскохозяйственного производства / И.В. Сабодах // Научно-практические аспекты развития АПК: Материалы национальной научной конференции, Красноярск, 18 ноября 2023. – С. 86-88.
13. Смоленцева, Е.В. Основные показатели интенсификации сельскохозяйственного производства в современном периоде / Е.В. Смоленцева // Успехи современной науки. – 2016. – Т. 1, № 8. – С. 121-123.

Эльнур Гара оглу Аллахвердиев
доцент Азербайджанского Университета Кооперации,
доктор философии по экономике
E-mail:allahverdiyev.elnur33@mail.ru

Современные факторы формирования органического сельского хозяйства в Азербайджане

Резюме

Цель исследования – выявление и обоснование современных факторов формирования органического сельского хозяйства в Азербайджане. Исследованы и обобщены проблемы создания и развития органического сельского хозяйства. Проанализированы постулаты развития в этих направлениях в современный период и подготовлены соответствующие предложения.

В качестве методологии исследования использованы методы научной абстракции, анализа, синтеза и обобщения. Кроме того, приведены ссылки на научные работы, посвящен-

ные проблемам развития органического земледелия.

С точки зрения прикладной значимости исследования, можно сказать, что изложенные в статье предложения могут быть полезны при разработке механизмов развития модели органического сельского хозяйства в условиях современных экономических преобразований.

Что касается результатов исследования, то можно отметить высокую вероятность их использования при применении более совершенных и иных механизмов и инструментов действия для более эффективной организации процессов развития органического сельского хозяйства.

С точки зрения оригинальности и научной новизны исследования следует отметить, что всесторонне исследованы теоретические и методологические подходы к развитию органического сельского хозяйства в современную эпоху и обоснована важность применения модели органического сельского хозяйства в Азербайджане в соответствии с международным опытом. Приведены научные аргументы в этом отношении и определены соответствующие направления действий.

Ключевые слова: Азербайджан, органическое сельского хозяйства, сельскохозяйственная инфраструктура, проблемы развития сельского хозяйства, модель органического сельского хозяйства, факторы развития сельского хозяйства.

Elnur Gara Allahverdiev
Assistant professor of Azerbaijan Cooperation University,
Doctor of Philosophy in Economics,
E-mail: allahverdiyev.elnur33@mail.ru

Modern drıvers of organıc agrıculture formatıon ın Azerbaıjan

Summary

The purpose of the study is to identify and substantiate the modern drivers of the formation of organic agriculture in Azerbaijan. The problems of the creation and development of organic agriculture have been investigated and generalized. The postulates of development in these directions in the modern period have been analyzed and appropriate proposals have been prepared.

The methods of scientific abstraction, analysis, synthesis and generalization have been used as the methodology of the study. On the other hand, references have been made to scientific works dedicated to the problems of the development of organic agriculture.

From the point of view of the applied significance of the study, we can say that the proposals summarized in the article can be useful in developing mechanisms for the development of the organic agriculture model in the conditions of current economic transformations.

In terms of the results of the study, it can be noted that these results have a high probability of being used in the application of superior and different mechanisms and tools of action for a more efficient organization of the development processes of organic agriculture.

In terms of the originality and scientific novelty of the study, it should be noted that the theoretical and methodological approaches to the development of organic agriculture in the modern era have been comprehensively investigated and the importance of applying the organic agriculture model in Azerbaijan in accordance with international experience has been substantiated. Scientific arguments have been given in this regard and relevant directions of action have been identified.

Key words: Azerbaijan, organic agriculture, agricultural infrastructure, agricultural development problems, organic agriculture model, agricultural development drivers.